# Gənclər Kitabxanasında "İnsan alverinə səssiz qalma!" adlı material hazırlanıb




**BMT-nin Baş Assambleyasının 2013-cü il dekabrın 18-də qəbul etdiyi qətnaməyə əsasən hər il iyulun 30-u Ümumdünya İnsan Alverinə qarşı Mübarizə Günü kimi qeyd edilir.**

Dünya cəmiyyətlərinin əsas sosial bəlalarından birinə çevrilmiş insan alveri problemi şübhəsiz ki, Azərbaycan cəmiyyətindən də yan keçməmişdir. Ölkəmizdə Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020?2024-cü illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində insan alveri qurbanlarının sosial müdafiəsi, reabilitasiyası üçün tədbirlər görülür, insan alverinin xüsusiyyətləri və bu sahədə görülən işlər haqqında elmi, sosial tədqiqatlar, maarifləndirmə tədbirləri aparılır. Bununla əlaqədar olaraq Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında "İnsan alverinə səssiz qalma!" adlı biblioqrafik icmal hazırlanıb.

Kitabxanadan bildirilib ki, material kitabxananın rəsmi saytında yerləşdirilib. Vəsaitdə "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu və digər rəsmi sənədlərin tam mətni təqdim edilir.

Materialda "İnsan alverinin qurbanına çevrilməyək..." başlığı altında dünyada ciddi problemə çevrilən insan alveri, onun qurbanları, müdafiə yolları, bu insanların sonradan cəlb olunduqları reabilitasiya proqramları, onlarla aparılan maarifləndirmə işləri və digər bu kimi mövzular haqqında məlumat verilir.

Kitabxana əməkdaşları tərəfindən hazırlanan biblioqrafik icmalda Azərbaycan və rus dillərində nəşr edilən "Miqrasiya, insan alveri və onunla əlaqədar olan sağlamlıq riskləri", "İnsan alverinə qarşı mübarizə üzrə bələdçi", "İnsan alveri ilə mübarizə", "İnsan alverinə qarşı mübarizə sahəsində Azərbaycan təcrübəsi" kimi 20-dən çox kitabın qısa annotasiyası, biblioqrafik təsviri və bu mövzuda 2014-2025-ci illərdə dövrü mətbuatda dərc edilən məqalələrin siyahısı sərgilənir.

Azərbaycan.-2025.- 31 iyul (№ 157).- S.7.